AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

№1(13)
2013

MALİYYƏ SABİTLİYİ İCMALI

I Rüb

AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

İcmalın əsas məqsədi Azərbaycan Respublikasının Mərkəzi Bankının (AMB) maliyyə sabitliyi üzrə təhlillərini və gözləntilərini əks etdirməkdir. Bu icmalın digər məqsədi isə AMB tərəfindən maliyyə sabitliyi üzrə qəbul olunmuş qərarların bank sisteminə mümkün təsirlərini müntəzəm olaraq ictimaiyyətə çatdırmaqdır. İcmal rüblük olaraq ildə dörd dəfə ictimaiyyətə açıqlanır.

№ 1(13)
2013

MALİYYƏ SABİTLİYİ İCMALI

I Rüb

MÜNDƏRİCAT

GİRİŞ 4

I. Bank sektorunun fəaliyyət göstərdiyi mühit 5

1.1. Qlobal maliyyə sabitliyi üzrə son meyillər 5

Haşiyə 1. İnkişaf etməkdə olan ölkələrdə Makroprudensial və Kapital Hərəkətinin tənzimlənməsi tədbirləri 8

1.2. Azərbaycanda makroiqtisadi proseslər 9

II. Bank sisteminin inkişafı 11

2.1. Bank sisteminin əsas göstəricilərinin dinamikası 11

2.2. Bank sisteminin öhdəlikləri 12

2.3. Bank sisteminin aktivləri 13

Haşiyə 2. İnformasiya bölgüsünün bank sektoruna təsirlərinin qiymətləndirilməsi 15

2.4. Bank sektorunun fəaliyyətinin maliyyə nəticələri 17

2.5. Bank sektorunun kapitalı 18

2.6. Banklarda faiz dərəcələri 19

III. Bank sistemində risklər 20

Haşiyə 3. Vaxtı keçmiş kreditlər və makroiqtisadi göstəricilər arasında əlaqə 21

Haşiyə 4. Stress-testləşmənin evolyusiyası 22

IV. Ödəniş sistemləri 23

Haşiyə 5. Dünyada E-ticarətin inkişafı 24

İstifadə olunmuş qrafik və cədvəllər 26

Abbreviaturalar

AMB	–	Azərbaycan Respublikasının Mərkəzi Bankı
AİF	–	Azərbaycan Respublikası Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu
AZİPS	–	Real Vaxt Rejimində Banklararası Hesablaşmalar Sistemi
BVF	–	Beynəlxalq Valyuta Fondu
DQİ	–	Dövlət Qısamüddətli İstiqrazları
DSK	–	Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
HHİ	–	Herfindal-Hirşman İndeksi
XÖHKS	–	Xırda Ödənişlər üzrə Hesablaşma Klirinq Sistemi
İEOÖ	–	İnkişaf Etməkdə Olan Ölkələr
İEÖ	–	İnkişaf Etmiş Ölkələr
MN	–	Azərbaycan Respublikası Maliyyə Nazirliyi
REM	–	Real Effektiv Məzənnə
ROA	–	Aktivlərin Gəlirliliyi
ROE	–	Kapitalın Gəlirliliyi
ÜDM	–	Ümumi Daxili Məhsul

GİRİŞ

Cari ilin birinci rübündə dünya iqtisadiyyatında iqtisadi artım davam etmişdir. Əksər ölkələrdə həyata keçirilmiş maliyyə sabitliyi və iqtisadiyyata yardım proqramları nəticəsində maliyyə sistemində və real sektorda pozitiv gözləntilər artmışdır. İqtisadi determinantların yaxşılaşması nəticəsində sistem riskləri tədricən azalmaqdadır. Bununla belə, qlobal iqtisadi artım prosesləri qeyri-bərabər gedir. Pozitiv dinamika ilə yanaşı bir çox ölkələrdə maliyyə sabitliyi kifayət qədər kövrək olaraq qalır, orta- və uzunmüddətli perspektivdə makroiqtisadi risklərin artması təhlükəsi öz aktuallığını saxlayır.

Qlobal qeyri-müəyyənlik fonunda ölkə iqtisadiyyatında artım dinamikası dövr ərzində davam etmiş, makroiqtisadi və maliyyə sabitliyi qorunmuşdur. Mərkəzi Bankın fəaliyyəti aşağı inflyasiya, manatın məzənnəsinin sabitliyi, bank-maliyyə sektorunda inkişafın və sabitliyin möhkəmlənməsinə yönəlmişdir.

Həyata keçirilən siyasət nəticəsində Azərbaycan bank sistemində maliyyə sabitliyi qorunmuş və inkişaf prosesləri dərinləşmişdir. Bank sektorunun kapital və likvidlik mövqeləri əlverişli səviyyədə qalmış, onun resurs bazası dayanıqlı mənbələr hesabına genişlənmişdir. Bankların riskləri müəyyənləşdirmək və idarə etmək potensialı artırılmışdır. Qeyri-neft iqtisadiyyatında artımın dəstəklənməsində bank sisteminin rolu daha da artmış, onun regional əhatə dairəsi genişlənmişdir.

I. BANK SEKTORUNUN FƏALİYYƏT GÖSTƏRDİYİ MÜHİT

1.1. Qlobal maliyyə sabitliyi üzrə son meyillər

Mərkəzi bankların qeyri-ənənəvi siyasət tədbirləri 2013-cü ilin I rübündə də qlobal maliyyə sisteminin sabitləşməsinə dəstək vermişdir. Bununla belə, dünya iqtisadiyyatında bərpa meyillərinin kövrək və qeyri-bərabər templərlə davam etməsi, maliyyə sistemində orta və uzunmüddətli perspektivdə nəzərdə tutulmuş islahatlar, işsizlik və s. səbəblərdən maliyyə sistemi həssas qalmışdır. Belə şəraitdə dövlət rəsmiləri və beynəlxalq təşkilatlar qarşısında əsas çağırışlar qlobal tələbin tarazlaşdırılması, iqtisadi artımın və iş yerlərinin yaradılmasının dəstəklənməsi, maliyyə sisteminin dayanıqlığının artırılmasıdır.

BVF-nun son hesabatında[1] qlobal maliyyə sabitliyinin dinamikasında müsbət meyillərin sürətlənməsi qeyd olunur (Qrafik 1.1.). Hesabata görə milli və qlobal səviyyədə əlaqələndirilmiş siyasi tədbirlər monetar və maliyyə şəraitini yumşaltmış, riskləri azaltmış, risk iştahasının və aktivlərin qiymətlərinin artmasına təkan vermişdir. Qlobal maliyyə şərtləri və bazar konyunkturunun əhəmiyyətli yaxşılaşması iqtisadi aktivliyi dəstəkləmişdir. Qlobal makroiqtisadi risklər azalmışdır. Daşınmaz əmlak bazarında aktivlik bərpa olunmuş, ev təsərrüfatlarının "delevericinqi" davam etmiş, istehlak canlanmış, banklar isə kreditləşməni artırmışlar.

İnkişaf etməkdə olan bazarlarla (yeni yaranan bazarlar) bağlı risklər də azalmışdır: artım stabilləşmiş, xarici maliyyələşmə şərtləri yaxşılaşmışdır. Bununla belə, Avrozonada qısamüddətli perspektivlər qeyri-müəyyən olaraq qalır.

Maliyyə streslərinin azalması bazar və likvidlik risklərinin də yumşalmasına təkan vermişdir. Maliyyə bazarlarında volatillik azalmış, banklar və korporativ sektorun kapital bazarları vasitəsilə maliyyələşmə imkanları genişlənmişdir.

Kredit və məcmu tələbi dəstəkləyən mərkəzi bankların adaptiv siyasəti monetar və maliyyə şərtlərini yumşaltmışdır. Aşağı faiz dərəcələri siyasətinin gələcəkdə davam etməsi gözləntiləri investorların risk iştahasını artırmışdır.

Qrafik 1.1. Qlobal maliyyə sabitliyi xəritəsi



Mənbə: BVF, Global Financial Stability Report, April 2013

Bununla belə, BVF-nun hesabatına əsasən, köhnə - təhlükələrin aradan qaldırılmaması şəraitində orta- və uzunmüddətli perspektivdə aktuallaşa bilən yeni risklər formalaşır. Yaxın perspektivdə əsas risk mənbələri kimi Avrozona-da baş verən proseslər, xüsusilə İtaliyadakı siyasi qeyri-müəyyənlik, maliyyə sisteminin (əsasən Avrozonanın periferiyasında) kövrəkliyi, Avrozona ölkələri arasındakı fraqmentasiya, ABŞ-ın fiskal siyasəti qeyd olunur.

Qeyri-müəyyən iqtisadi siyasət, fiskal konsolidasiya və kredit kanallarının tam bərpa olunmaması, habelə qlobal tələb-təklif natarazlığının aradan qaldırılmaması qlobal iqtisadi artımın zəif olmasını şərtləndirir.

[1] International Monetary Fund, 2013, Global Financial Stability Report: Old Risks, New Challenges (Washington, April)

BVF-nun proqnozlarına əsasən, cari ildə qlobal iqtisadi artım 2012-ci ildən çox olmayacaq (Qrafik 1.2.). İqtisadiyyatın artım tempinə dair Fondun son proqnozları yanvar ayı ilə müqayisədə azalmağa doğru dəyişib (Yaponiya istisna olmaq şərtilə). Proqnozlara əsasən qlobal iqtisadi artım il ərzində 3.3% təşkil edəcəkdir ki, bu da əvvəlki proqnozdan 0.2 faiz bəndi azdır. İnkişaf etmiş ölkələrdə iqtisadi artımın 1.2% olacağı ehtimal edilir. Bununla belə Avrozona iqtisadiyyatının 0.3% azalması gözlənilir. İnkişaf etməkdə olan ölkələrdə ÜDM-in artımının il ərzində 5.3% təşkil edəcəyi ehtimal edilir.

Qrafik 1.2. ÜDM-in artım tempi, %-lə



Mənbə: BVF, World Economic Outlook, April 2013

BVF-nun rəhbəri Kristin Laqardın sözlərinə görə, dünya iqtisadiyyatı *"üçsürətli rejimdə" fəaliyyət göstərir: (i) iqtisadi performansı məqbul olan ölkələr - əksəriyyəti inkişaf etməkdə olan ölkələr; (ii) pozitiv trendlər müşahidə olunan ölkələr – ABŞ; (iii) geridə qalan ölkələr – Avrozona və Yaponiya.*

BVF-nun pessimist proqnozlarını digər analitik mərkəzlər də dəstəkləyir. Belə ki, Avropa Şurasının (AŞ) yenilənmiş proqnozlarına görə, Avrozona iqtisadiyyatının 2013-cü ildə 0.3% azalması gözlənilir (əvvəlki proqnozlarda əksinə 0.1% artım gözlənilirdi). AŞ-nın proqnozlarına əsasən Avrozona iqtisadiyyatı müsbət dinamikaya yalnız 2014-cü ildə qayıda bilər (gözlənilən artım 1.4%).

Qlobal ticarətin artım tempi zəif olaraq qalır (Qrafik 1.3.). 2013-cü ilin yanvar-fevral aylarında ticarətin həcmi ötən ilə nəzərən ABŞ və Avrozonada 1% yüksəldiyi halda, Yaponiyada 10% aşağı düşmüşdür. Son meyilləri nəzərə alaraq, Ümumdünya Ticarət Təşkilatının proqnozlarına görə, dünya ticarətinin həcminin artım tempi cari ildə cəmi 3.3% təşkil edəcək. Bununla belə, qlobal cari əməliyyatlar balanslarında müşahidə edilən natarazlıqların 30% azalması pozitiv meyil kimi qeyd edilə bilər.

Qrafik 1.3. Qlobal ixrac, ö.i.n. %-lə



Mənbə: BVF, UNCTAD

Qlobal ticarətin zəifləməsi şəraitində beynəlxalq bazarlarda əmtəə qiymətləri azalmağa meyil edir. 2013-cü ilin I rübünün sonuna əmtəə qiymətləri indeksi ötən ilin müvafiq dövrü ilə müqayisədə 9.1% azalmış, ilin əvvəli ilə müqayisədə isə 0.5% artmışdır. Mart ayında qiymətlərin səviyyəsində enmələr əsasən taxılın ucuzlaşması ilə izah olunur. Enerji daşıyıcıları qiymətlərində də enmələr müşahidə olunur. Rübün sonuna Brent markalı neftin qiyməti (113$) ötən ilin müvafiq dövrü ilə müqayisədə 13% azalmışdır.

Qrafik 1.4. Əmtəə qiymətləri indeksi, 2009M1=100



Mənbə: Dünya Bankı, BVF

Dünya iqtisadiyyatında işsizlik ciddi problem olaraq qalmaqdadır. Xüsusilə gənclər arasında işsizlik yüksək həddədir. Beynəlxalq Əmək Təşkilatının son qiymətləndirmələrinə görə, 15-24 yaş arasında olan gənclər üzrə işsizlərin sayı 2007-ci ildən bəri 3.8 milyon artaraq 74.2 milyon nəfərə çatmışdır.

Proqnozlara əsasən cari ildə Avrozonada işsizlik 12.2%-ə artacaq, işsiz olanların sayı 19 milyondan artıq olacaqdır. ABŞ-da isə işsizlik davamlı olaraq azalma istiqamətindədir. ABŞ-ın Əmək Nazirliyinin dərc etdiyi hesabatda işsizlik səviyyəsinin 7.6%-ə düşməsi qeyd olunur ki, bu da son dörd ildə minimal göstəricidir.

Qlobal iqtisadiyyatda gedən proseslər fond bazarlarının dinamikasında da əks olunur. Belə ki, Avropada borclanma riskinin artması və ÜDM-ə dair mənfi gözləntilərin güclənməsi fonunda fond indekslərinin azalmağa doğru korreksiyası baş verirsə, ABŞ və Yaponiyada makroiqtisadi gözləntilərin yaxşılaşması şəraitində fond bazarlarında artım müşahidə olunur. Səhm bazarlarında volatillik 2008-ci il səviyyəsinə düşmüşdür. Qlobal valyuta bazarında avronun ABŞ dollarına qarşı zəifləməsi riskləri artmışdır.

Qrafik 1.5. Qlobal maliyyə bazarlarında aktivlik indeksinin dinamikası



Mənbə: BVF, UNCTAD

Hesabat dövründə aparıcı ölkələrdə investisiya fəallığı da zəif olaraq qalmışdır (Qrafik 1.6.). Ümumilikdə, qlobal iqtisadi böhranın başladığı dövrdən etibarən kapital axınlarının həcmi 60%-dək azalmış və bu əsasən inkişaf etmiş ölkələr hesabına baş vermişdir. Son rüb ərzində də inkişaf etməkdə olan ölkələrə kapital axınları davam etmişdir ki, bu da həmin ölkələrdə "iqtisadi hərarətlənmə" riskini yüksəldir.

Qrafik 1.6. İEOÖ-ə xalis kapital axınları, mlrd. $



Mənbə: BVF, UNCTAD

İnkişaf etmiş ölkələr üçün əsas çağırış - zəifləmiş məcmu tələbi siyasət tədbirləri vasitəsi ilə canlandırmaq, inkişaf etməkdə olan ölkələr üçün isə (İEOÖ) hərarətlənmə meyillərinin sabitləşməsidir. Lakin, inkişaf etmiş ölkələrdə məcmu tələbin bərpası üçün siyasət imkanları getdikcə azalır. Bir çox inkişaf etmiş ölkələrdə (İEÖ) konsolidasiya meyillərinin güclənməsi mümkün artım üçün fiskal impulsların potensialını minimuma endirir. Xatırladaq ki, 2012-ci ildə qlobal fiskal defisit 0.75% azalmışdır. Mərkəzi Bankların "şişmiş" balansları isə iqtisadiyyata monetar dəstəyin davam etdirilməsinin məqsədəuyğunluğunu sual altına qoyur (Qrafik 1.8.).

Qrafik 1.7. Fiskal balans, %-lə (ÜDM-ə nisbətən)



Mənbə: BVF

Hesabat dövründə aparıcı mərkəzi banklar (ABŞ-ın FES-i, İngiltərə Bankı, Yaponiya Bankı)

faiz dərəcələrini dəyişməmiş və aktivlərin satın alınması proqramlarının davam etdirilməsini bəyan etmişlər. Yaponiya Bankı isə aktivlərin satın alınması proqramının genişlənməsini nəzərdən keçirir.

Qrafik 1.8. Aktivlərin ÜDM-ə nisbəti, %-lə



Mənbə: Reuters Datastream

Ümumilikdə, hesabat dövründə qlobal böhranla mübarizə məqsədilə milli və qlobal səviyyədə həyata keçirilən əlaqələndirilmiş tədbirlər bank sektorunun kövrəkliyini azaltmış və maliyyə bazarlarının sabitləşməsini dəstəkləmişdir. Görülmüş tədbirlərin (mərkəzi bankların aşağı faiz dərəcələri, likvidlik dəstəyi və s.) banklara qısamüddətli müsbət təsirinə baxmayaraq, uzunmüddətli perspektivdə maliyyə sabitliyi üçün potensial risklər qalır. Belə ki, qlobal bank sisteminin perspektivləri bir sıra amillərlə şərtlənir: qlobal böhranın neqativ təsiri, monetar orqanların qısamüddətli antiböhran tədbirləri, orta- və uzunmüddətli dövrdə institusional dəyişikliklər, dəyişən makroiqtisadi və institusional mühitə adaptasiyanın nəticəsi olan bank sistemindəki struktur dəyişikliklər.

2013-cü ilin I rübündə Kipr bank sistemində baş vermiş böhran Avrozonada

Haşiyə 1. İnkişaf etməkdə olan ölkələrdə Makroprudensial və Kapital Hərəkətinin tənzimlənməsi tədbirləri

Tətbiq olunduğu istiqamət	Həyata keçirilmiş tədbir
Kredit artımı və bank sektorunun sağlamlığı	• Ev təsərrüfatları tərəfindən izafi borclanmanın qarşısının alınması və bank sektorunda risklərin azaldılması üçün periodik olaraq dəyişdirilən LTV əmsalı və borcun gəlirə nisbəti (DTİ) əmsalı tətbiq edilməyə başlanmışdır (Honq Konq, Koreya, Sinqapur). • İstehlak kredit kartlarından istifadəyə tətbiq edilən vergi 2.38%-dən 6.38%-ə yüksəldilmişdir. Eyni zamanda xarici valyutada qısa mövqelərin artımına 1%-lik vergi tətbiq edilmişdir (Braziliya). • Koreyada kreditin depozitə nisbəti (LTD) maksimum həddə - 100% müəyyən edilmişdir. Xarici valyutada borcların yüksəlməsinin məhdudlaşdırılması məqsədilə xarici valyuta mövqeləri üzrə məhdudiyyətlər, xarici-valyutada qeyri-depozit öhdəlikləri üzrə əlavə yığımlar, maliyyələşmə mənbələri üzrə müddət strukturunun uzadılması və xarici valyutada likvidlik buferinin yüksəldilməsi kimi tədbirlər tətbiq edilmişdir. • İndoneziyada bank kapitalının 30%-indən artıq xarici borclanan banklara müəyyən məhdudiyyətlər tətbiq edilmişdir. Eyni zamanda xarici borc öhdəlikləri üzrə 8%-lik məcburi ehtiyat norması müəyyən olunmuşdur.
Səmərəli korporativ idarəetmə	• Hindistan Mərkəzi Bankı tərəfindən xarici borclanmanın məhdudlaşadırılması məqsədilə "Xarici Kommersiya Kreditləşməsi"(XKK) aləti tətbiq etməyə başlanmışdır. Müəyyən edilmiş qaydalara görə infrastruktur, telekommunikasiya və regional inkişafla bağlı layihələrin 50%-ə qədər hissəsi XKK vasitəsi ilə maliyyələşdirilə bilər. • Braziliyada yerli şirkətlərin xaricdən aldıqları və müddəti 720 günə qədər olan kreditlərə 6%-lik vergi tətbiq edilmişdir.
Aktivlərin qiyməti və kapital axını təzyiqləri	• Koreyada kapital axınlarının qarşısının alınması üçün xarici qiymətli kağızlardan əldə edilən faiz gəlirlərinə 14%-lik vergi tətbiq edilmişdir. • Çində aktivlərin qiymətlərinin kəskin artımının qarşısını almaq üçün şəxslər üçün əmlak sayına məhdudiyyətlərin qoyulması, bəzi şəhərlərdə əmlak vergisinin yüksəldilməsi, aşağı gəlirli əhali qrupları üçün evlərin tikilməsi kimi tədbirlər həyata keçirilmişdir.

Mənbə:
Global Financial Report, Restoring Confidence and Progressing on Reforms, IMF, October 2012

kredit risklərinin yüksək olmasının bariz nümunəsidir. Bank böhranı bu ölkədə defolt ehtimalını aktuallaşdırmışdır. Kipr bank sisteminin sağlamlaşdırılması, böhranın daha da dərinləşməsi təhlükəsinin qarşısını almaq üçün Avroqrup xüsusi kredit ayırmışdır.

Avrozonadan fərqli olaraq, ABŞ bank sistemində müsbət meyillər müşahidə olunur. Cari ilin mart ayında ABŞ-ın FES-i ölkənin ən iri, aktivləri 50 mlrd. $-dan çox olan 8 bank holdinq şirkətinin (bank sisteminin ümumi aktivlərinin 70%-ini əhatə edir) stress-testinin nəticələrini açıqlamışdır. Stress-testin məqsədi iqtisadi konyunkturun kəskin pisləşməsinə bankların dayanıqlılığının qiymətləndirilməsi olmuşdur. Stress-test ABŞ bank sisteminin resessiya riskinə kifayət qədər dayanıqlı olduğunu göstərdi. FES-in məlumatına əsasən son stress-testin nəticələri 2012-ci ildə aparılmış stress-testin nəticələrindən daha müsbət olmuşdur (2012-ci ildə stress-test 4 bankın resessiya riskinə çox həssas olduğunu müəyyən etmişdi).

Qrafik 1.9. Bankların kapital adekvatlığı



Mənbə: BVF, Global Financial Stability Report, April 2013

BVF-nun son "Qlobal Maliyyə Sabitliyi Hesabat"ında direktiv orqanlarına çevik və sayıq olmaları tövsiyə edilir. Tövsiyələrə görə mərkəzi bankların siyasəti iqtisadiyyatın dəstəkləməsinə və maliyyə sabitliyinin qorunmasına xidmət etməlidir. Bununla belə, aidiyyati orqanlar maliyyə sabitliyi üçün potensial və ya yaranmaqda olan risk mənbələrini izləməli və müvafiq tədbirlər görməlidirlər. Maliyyə sabitliyinin qorunması məqsədilə bankların sağlamlaşdırılması və potensial şoklara qarşı onların həssaslığının azaldılması istiqamətində tədbirlərin görülməsi də tövsiyə edilir. Maliyyə sektorunun risklərini azaldan mikro və makro prudensial siyasət tədbirləri iqtisadiyyatı stimullaşdırmaq üçün müvafiq monetar siyasətin aparılmasına əlverişli mühit yaradır.

1.2. Azərbaycanda makroiqtisadi proseslər

2013-cü ilin I rübündə əlverişli xarici mövqe və yüksək daxili tələb iqtisadi artıma müsbət təsir göstərmişdir.

Son illərdə olduğu kimi, cari ilin birinci rübündə də ölkənin xarici mövqeyi əlverişli olmuşdur. Dövlət Gömrük Komitəsinin (DGK) məlumatlarına əsasən, 2013-cü ilin I rübündə xarici ticarət dövriyyəsi 8.6 mlrd. $ təşkil etmişdir ki, bunun da 6.3 mlrd. $ ixracın, 2.2 mlrd. $ isə idxalın payına düşür. Yanvar-mart aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə ixrac 8,7%, idxal isə 7.6% artmışdır. Xarici ticarət balansının profisiti isə 4,1 mlrd. $ olmuşdur. Ümumilikdə, ixrac idxalı 2.9 dəfə üstələmişdir.

Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozlarına əsasən, 2013-cü ilin sonuna Azərbaycanda cari əməliyyatlar balansının profisiti ÜDM-in 11%-ni təşkil edəcəkdir. Ölkə bu göstəriciyə görə MDB-də liderdir və İEOÖ arasında ən qabaqcıl yerlərdən birini tutur. Fondun hesablamaları iri həcmli profisitin orta müddətli dövrdə də davam edəcəyini göstərir.

İxracdan əlavə, xaricdən kapital axınlarının dinamikası da ölkəyə valyuta daxilolmalarına artırıcı təsir göstərmişdir. DSK-nın məlumatına görə, ölkə iqtisadiyyatına qoyulmuş xarici investisiyaların həcmi yanvar-mart aylarında 60%-dən çox artaraq 1.2 mlrd. $ təşkil etmişdir.

Cari ilin I rübündə ölkənin strateji valyuta ehtiyatları 1.1 mlrd. $ və ya 2.3% artaraq 47.1 mlrd. $-ına bərabər olmuşdur ki, bu da təqribən 3 illik mal və xidmətlərin idxalına kifayət

edir. Strateji valyuta ehtiyatları ÜDM-in 70%-inə bərabər olmaqla, xarici dövlət borcundan təqribən 8 dəfə çoxdur.

2013-ci ilin I rübündə iqtisadi artıma məcmu tələbin bütün komponentlərinin, o cümlədən, son istehlak xərclərinin, investisiyaların, dövlət xərclərinin artımı müsbət təsir etmişdir. Orta aylıq əmək haqqının, iqtisadiyyatda məşğul əhalinin sayının və əhalinin istehlak kreditlərinin həcminin artması nəticəsində ümumi istehlakçı aktivliyi yüksək olmuşdur. Gəlirlərin artımı pərakəndə ticarət dövriyyəsinin də artmasına şərait yaratmışdır.

Hesabat dövründə iqtisadiyyata ümumi investisiya qoyuluşu 36.1%, ondan ticari sektora investisiyalar 2.5 dəfə, qeyri-ticari sektora investisiyalar isə 12.5% artmışdır.

Cari ilin birinci rübündə ÜDM real ifadədə 3.1% artmış və nominal olaraq 13 mlrd. manat təşkil etmişdir. Hesabat dövründə qeyri-neft sektorunda 11.4% artım qeydə alınmışdır. Yaradılan əlavə dəyərin 2/3 hissəsi məhsul istehsalı sahələrinin, 1/3 hissəsi isə xidmət sahələrinin payına düşür.

Qrafik 1.10. Yanvar-mart aylarında iqtisadi artım, %-lə



Mənbə: AMB

Mərkəzi Bankın, habelə beynəlxalq təşkilatların proqnozlarına görə, yaxın perspektivdə ölkədə iqtisadi artımın davam edəcəyi gözlənilir.

2013-cü ilin birinci rübü ərzində qiymət sabitliyi təmin edilmiş, inflyasiya AMB-nin müəyyən etdiyi hədəf çərçivəsində qorunmuşdur.

Qrafik 1.11. Orta illik İQİ, %-lə



Mənbə: AMB

Orta illik inflyasiya 1.2% təşkil etmişdir ki, bu da son illərdə müşahidə olunan ən aşağı inflyasiya səviyyəsidir. İlin əvvəlinə nəzərən qiymətlər 2.3%, ötən ilin eyni dövrü ilə müqayisədə isə cəmi 1.5% artmışdır.

2013-cü ilin I rübündə məzənnə siyasəti manatın ABŞ dollarına qarşı məzənnəsinin sabitliyinə yönəldilmişdir. Məzənnə siyasətinin parametrləri tədiyə balansının vəziyyəti, bank sektorunda maliyyə sabitliyinin və qeyri-neft sektorunun rəqabət qabiliyyətinin qorunması hədəfləri nəzərə alınmaqla müəyyənləşdirilmişdir.

Ölkənin tədiyə balansında böyük profisitin mövcud olması şəraitində valyuta bazarında təklif tələbi üstələmişdir. Lakin, məzənnənin əhəmiyyətli möhkəmlənməsinin qarşısını almaq və bununla da qeyri-neft sektorunun rəqabət qabiliyyətinə neqativ təsirləri neytrallaşdırmaq üçün Mərkəzi Bank tərəfindən rüb ərzində 844.7 mln. $ həcmində valyuta sterilizasiyası həyata keçirilmişdir.

2013-cü ilin I rübü ərzində geniş pul kütləsi iqtisadiyyatın tələbatına uyğun olaraq dəyişmiş, manatla geniş pul kütləsi 0.2% artmışdır. Pul kütləsinin strukturunda yaxşılaşma prosesi davam etmişdir.

II. BANK SİSTEMİNİN İNKİŞAFI

2.1. Bank sisteminin əsas göstəricilərinin dinamikası

2013-cü ilin I rübündə bank sektoru artım dinamikasını qoruyub saxlamış və maliyyə xidmətlərinə çıxış imkanlarının artması prosesi davam etmişdir.

Cari ilin I rübünün sonuna bank sektorunun aktivləri 18 494.4 mln. manat təşkil etmişdir. Rüb ərzində bank aktivləri 851 mln. manat və ya 4.8% artmışdır. Kreditlər 1.7% artaraq rübün sonuna 12 606.2 mln. manata çatmışdır ki, bu da bank aktivlərinin 64.7%-ni təşkil edir.

Bankların maliyyə və qeyri-maliyyə sektorundan cəlb etdikləri vəsaitlər 2% azalsa da, fiziki şəxslərin əmanətləri rüb ərzində 8.3% artaraq 5 536.4 mln. manata çatmışdır.

Bank sisteminin maliyyə dərinliyi artmaqda davam edir. Son 5 ildə bank aktivlərinin ÜDM-ə nisbəti 6.1 faiz bəndi artmışdır.

Maliyyə dərinliyinin artması maliyyə xidmətlərindən istifadə səviyyəsində də öz əksini tapır. Belə ki, I rübün sonuna Mərkəzləşdirilmiş kredit reyestrində 1 632 119 borcalan haqqında məlumat toplanmışdır ki, bu da ilin əvvəli ilə müqayisədə 6% çoxdur.

Bank sisteminin təmərküzləşməsi azalır. İri bankların (kapitalın həcminə görə ilk 5 bank) sistem üzrə aktivlərdə payı 57.8%-dən 57.6%-ə azalmış, iqtisadiyyata kredit qoyuluşunda payı 54.2%-dən 53.6%-ə enmişdir. Herfindal-Hirşman indeksi[2]də (bank sistemində təmərküzləşmə səviyyəsini qiymətləndirilməsi üçün tətbiq edilir) bank sistemində ilin əvvəli ilə müqayisədə təmərküzləşmənin bir qədər azaldığını (2012-ci ilin sonuna Herfindal-Hirşman İndeksi orta təmərküzləşmə səviyyəsində) göstərir.

Qrafik 2.1. Herfindal – Hirşman indeksi (kreditin həcminə görə)



Mənbə: AMB

Bank sisteminin inkişafı sahəsində həyata keçirilən institusional və infrastruktur tədbirləri nəticəsində bankların xarici investorlar üçün cəlbediciliyi qorunub saxlanılmışdır. Rüb ərzində fəaliyyət göstərən xarici kapitallı bankların sayı 22 olmuş və bank sektoruna

Cədvəl 2.1. Bank sisteminin əsas göstəricilərinin artım tempi, %-lə

	01.01.2011	01.01.2012	01.04.2012	01.01.2013	01.04.2013
Aktivlər	13.9	7.3	2.4	26.5	4.8
Kreditlər	9.0	8.1	3	27.8	1.7
Hüquqi şəxslərin depozitləri	4.3	16.1	5	-0.2	-2
Əhalinin əmanətləri	29.8	36.0	4.3	24.1	8.3
Məcmu kapital	7.8	12.7	0.8	36.4	4.2

Mənbə: AMB

[1] Herfindal-Hirşman indeksi – bankların bank sistemində paylarının kvadratlarının cəminə bərabərdir. Burada bankların kreditlərinin payına görə.

xarici kapital investisiyalarının həcmi 11.6 mln. manat (3.4%) artaraq 341.5 mln. manata çatmışdır.

1 aprel 2013-cü il tarixə fəaliyyətdə olan bankların sayı 43 olmuşdur. Rüb ərzində 13 yeni bank filialı (cəmi 666 filial) və 1 yeni bank şöbəsi açılmışdır (cəmi 149 bank şöbəsi).

Qrafik 2.2. Bank şəbəkəsinin dinamikası



Mənbə: AMB

Qeyri-bank kredit təşkilatlarının sayında da artım müşahidə edilir. Qeyri-bank kredit təşkilatlarının sayı 133-dən 138-dək artmışdır. O cümlədən, kredit ittifaqlarının sayı 108 (1 yanvar 2013-cü il tarixə 104), beynəlxalq humanitar təşkilatlar tərəfindən maliyyələşdirilən kredit təşkilatlarının sayı isə 29 olmuşdur. Kredit ittifaqları və təşkilatları ilə yanaşı 1 bank olmayan kredit təşkilatı (Aqrar Kredit) maliyyə xidmətlərini göstərir. Onların filiallarının sayı isə rüb ərzində artaraq 1 aprel 2013-cü il tarixinə 106-ya çatmışdır (1 yanvar 2013-cü il tarixinə 102).

Əhalinin bank-maliyyə xidmətlərinə sərbəst çıxışını genişləndirən "AZƏRPOÇT" Məhdud Məsuliyyətli Cəmiyyətinin rüb ərzində filiallarının sayı dəyişməmiş (1 aprel 2013-cü il tarixə 63), şöbələrinin sayı isə 953-ə (1 yanvar 2013-cü il tarixə 945) çatmışdır.

2.2. Bank sisteminin öhdəlikləri

2013-cü ilin I rübündə bankların resurs bazasının formalaşmasında daxili bazardan cəlb edilmiş vəsaitlərin payı yüksək səviyyədə qalmışdır.

2013-cü ilin I rübündə bankların öhdəlikləri 4.9% artaraq (738.6 mln. manat) 15 826.7 mln. manata çatmışdır. O cümlədən, bankların ümumi depozitləri 13.3% artaraq 11 012.7 mln. manata yüksəlmiş və cəmi öhdəliklərin 69.6%-ni təşkil etmişdir.

Qrafik 2.3. Bankların resurs bazasının strukturu, %-lə



Mənbə: AMB

Rüb ərzində əhalinin əmanətləri 8.3% artaraq 5 563 mln. manata çatmış və onların bankların öhdəliklərində payı dövrün sonuna 35% təşkil etmişdir.

Qrafik 2.4. Qeyri-maliyyə sektorunun depozitlərinin dinamikası



Mənbə: AMB

2013-cü I rübünün sonuna müddətli əmanətlərin cəmi əmanətlərdə xüsusi çəkisi 79.3% olmaqla 4391 mln. manat təşkil etmişdir. Banklar tərəfindən əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəlməsinin nəticəsi olaraq hesabat dövründə də uzunmüddətli əmanətlərin artması təmin edilmişdir. Rüb ərzində uzunmüddətli əmanətlər

14.4% artaraq cəmi əmanətlərin 41%-ni təşkil etmişdir.

Qrafik 2.5. Əmanətlərin müddət strukturu, mln. manat



Mənbə: AMB

Hesabat dövründə milli valyutada əmanətlər 10% artaraq 3 260 mln. manata çatmış və cəmi əmanətlərin 59%-ni (ilin əvvəlinə 58%) təşkil etmişdir.

Qeyri-rezident fiziki şəxslər tərəfindən yerləşdirilmiş əmanətlərin həcmi ilin əvvəli ilə müqayisədə 13% artmışdır.

Hüquqi şəxslərin (maliyyə və qeyri-maliyyə təşkilatları) depozitləri 1 aprel 2013-cü il tarixinə 5 476.7 mln. manat təşkil etmişdir. Hüquqi şəxslərin cəmi depozitlərində müddətli depozitlərin xüsusi çəkisi 49.3% olmuşdur.

Qeyri-rezident banklardan və beynəlxalq maliyyə təşkilatlarından cəlb edilmiş vəsaitlərin həcmi rübün sonuna 1.9% artaraq 2 311.7 mln. manat olmuşdur. Bununla belə, xaricdən cəlb olunmuş

Qrafik 2.6. Xarici borcun dinamikası



Mənbə: AMB

vəsaitlərin səviyyəsi məqbul səviyyədə qorunmuş və cəmi öhdəliklərin 14.6%-ni təşkil etmişdir.

2.3. Bank sisteminin aktivləri

2013-cü ilin I rübündə maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi prosesi davam etmişdir. Kreditləşmə aktiv bank əməliyyatlarının əsas hissəsi olaraq qalır.

Cari ilin I rübündə bank aktivlərinin artımı 4.8% təşkil etmişdir ki, bu da əsasən kredit qoyuluşları ilə əlaqədar olmuşdur. Kredit qoyuluşları hesabat dövrü ərzində 1.7% artaraq 12 606.2 mln. manata çatmışdır.

Mərkəzi Bankın apardığı sorğuya əsasən cari ilin I rübündə kreditə tələbdə canlanma müşahidə olunmuşdur. Tələb əsasən uzunmüddətli kreditlərədir. Son 2 rüb ərzində iri biznes kreditlərinə tələb artır.

Qrafik 2.7. Biznes kreditlərinə tələb, (banklar arasında aparılmış sorğunun nəticələri)



Mənbə: AMB

İstehlak kreditləri üzrə bankların aktivliyində, gözlənildiyi kimi, canlanma müşahidə edilir. Ötən rübdə olduğu kimi, cari ilin I rübündə də xüsusi artım kredit kartları və ipoteka kreditləri seqmentində qeydə alınmışdır. Sorğu nəticələrinə görə, rüb ərzində ümumi kredit portfelinin keyfiyyəti yaxşılaşmış, əməliyyat və likvidlik risklərində azalma müşahidə olunmuş, maliyyə mənbələrinə çıxış imkanları genişlənmişdir. Hüquqi şəxslərin depozitlərinin, səhm emissiyasının və borc qiymətli kağızların buraxılmasının bankların maliyyələşməsində rolu artmışdır.

Qrafik 2.8. İstehlak kreditlərinə tələb və təklif, (sorğu nəticələri)



** müsbət balans - tələbin artması, mənfi balans - azalmasıdır*

Mənbə: AMB

Bankların kredit əməliyyatlarının genişlənməsi Mərkəzləşdirilmiş Kredit Reyestrinin məlumatlarından da görünür. Belə ki, cari ilin I rübünün sonuna kredit sorğularının sayı ötən ilin müvafiq dövrünə nisbətən 2.4 dəfə artaraq 133 269-a çatmışdır. Bunların 132 896-i kredit təşkilatları tərəfindən, 373-i isə fiziki şəxslər tərəfindən daxil olmuşdur.

Rüb ərzində kredit qoyuluşları uzunmüddətli kreditlər hesabına artmışdır. Uzunmüddətli kreditlər 7% artaraq kredit portfelinin 74.3%-nə çatmışdır. Qısamüddətli kreditlərin portfeldə xüsusi çəkisi isə rüb ərzində 3.7 faiz bəndi azalaraq 1 aprel 2013-cü il tarixinə 25.7% olmuşdur.

Qrafik 2.9. Kredit portfelinin valyuta strukturu, %-lə



Mənbə: AMB

Hesabat dövründə milli valyutada olan kreditlərin artım tempi (1.7% artım) xarici valyutada kreditlərin artım tempini (1.5% artım) üstələmişdir. Kredit portfelinin strukturunda milli valyutada kreditlərin xüsusi çəkisi rübün sonuna 67% olmuşdur.

Rübün sonuna banklar tərəfindən hüquqi şəxslərə verilmiş kreditlər 7 460 mln. manat (portfeldə payı 59.2%) təşkil etmişdir. Ev təsərrüfatlarına verilən kreditlər isə cari ilin I rübündə (banklar üzrə) 9.5% artmış və 4 395 mln. manat təşkil etmişdir.

Qrafik 2.10. Subyektlər üzrə kredit portfelinin strukturunun dinamikası



Mənbə: AMB

1 aprel 2013-cü il tarixinə fiziki şəxslərə daşınmaz əmlakın tikintisi və alınması üçün verilmiş kreditlər 621.8 mln. manat təşkil etmişdir. Bu kreditlərin ev təsərrüfatlarına verilmiş kreditlərin portfelində xüsusi çəkisi

Haşiyə 2. İnformasiya bölgüsünün bank sektoruna təsirlərinin qiymətləndirilməsi

Dünya təcrübəsi göstərir ki, maliyyə vəsaitlərinə çıxış imkanlarının asan olması iqtisadi artımı dəstəkləyən əsas faktorlardandır. Lakin dünya təcrübəsi göstərir ki, bir çox hallarda debitor və kreditor arasında assimetrik informasiyanın mövcud olması iqtisadi faktorların öz funksionallığını itirməsi ilə nəticələnir. Maliyyə bazarlarında informasiya assimetriyasını azaltmaq və bu tip arzuolunmaz halların qarşısını almaq məqsədilə borcalanlar haqqında informasiyanın bölüşdürülməsi həyata keçirilir.

Bankların malik olduqları maliyyə vəsaitlərinin həcmi və borcalanlar haqqında zəruri informasiya bank fəaliyyətinin sabitliyi üçün ən vacib amillərdən hesab olunur. Borcalan haqqında infomasiyanın toplanması və analizi bank fəaliyyətinin dayanıqlığını təmin edən əsas tədbirlərdəndir. Lakin, bir çox hallarda bu tip informasiyanın əldə olunması asan deyildir və bank borcvermə zamanı "əks seçim (adverse selection)"[3] və "mənəvi məsuliyyətsizlik (moral hazard)"[4] kimi problemlərlə üzləşir. Bu problemlərin qarşısını almaq məqsədilə həyata keçirilən tədbirlərin biri kredit alanlardan girovun tələb olunmasıdır. Lakin, bəzi şirkətlərin, xüsusilə kiçik şirkətlərin girova yönəldilən kapitalın həcmi borc alarkən kifayət etmir və alternativ tədbir kimi kredit götürən haqqında zəruri informasiya toplanılır. Bu tip informasiyaya – borcalan tərəfindən vaxtında ödənişlərin edilməsi, yaşayış və iş yerini, fəaliyyət istiqamətinin müntəzəm dəyişilməsi, yüksək riskli işlə məşğul olub olmaması, kreditlərin həcminin həddindən artıq böyük olması və ya az məbləğdə, lakin çox saylı kredit şirkətlərindən götürülməsi barəsində informasiya aid edilə bilər. Beynəlxalq təcrübəyə əsasən bu tip informasiyalar müxtəlif agentliklər tərəfindən toplanılır. Özəl "kredit büroları" (bəzi hallarda kredit reyestri agentlikləri) tərəfindən toplanılan informasiya könüllü xarakter daşıyır və yanlış məlumatın daxil olması halında kredit təşkilatının həmin informasiya bazasına çıxışı ləğv edilir. Əksər hallarda dövlət (Mərkəzi Bank) tərəfindən yaradılan bu tip agentliklərə isə informasiyanın ötürülməsi məcburi xarakter daşıyır.

Kredit borcalanlarının fərdi xüsusiyyətləri üzrə informasiyanın bölgüsü kredit fəaliyyətinə əhəmiyyətli təsir göstərir. Belə ki, informasiyanın bölgüsü borcalanın özünəməxsus keyfiyyətlərini müəyyən etməyə və kreditin geri qayıtma ehtimalını dəqiq qiymətləndirməyə və xüsusilə borcalanın bir neçə bankdan borc götürmək yolu ilə ifrat borclanmanın qarşısını almağa imkan verir.

İnformasiya bölgüsü bank böhranlarının baş verməsini məhdudlaşdırır. Ölkələr kredit barədə informasiyanın bölgüsünün miqyasına və əl çatanlığına görə fərqlənirlər. 98 İEÖ və İEOÖ arasında aparılmış qiymətləndirmə zamanı müəyyən olunmuşdur ki, informasiyanın bölgüsünün həyata keçirilməsi bank böhranlarının əhəmiyyətli azalmasına səbəb olur. Həmçinin, informasiyanın bölgüsü kəskin kredit artımı müşahidə olunduğu ölkələrdə bank böhranlarının yaranması ehtimalını aşağı salır.

Kredit informasiyasının bölgüsü dərinliyi indeksi[5]

Ölkə	İndeks	Ölkə	İndeks	Ölkə	İndeks	Ölkə	İndeks
Anqola	4	Kolumbiya	4	İsrail	5	Yeni Zelandiya	5
Argentina	6	Əlcəzair	2	İtaliya	5	Yaponiya	6
Avstraliya	5	Ekvador	5	Yamayka	0	İordaniya	2
Belçika	4	Misir	2	Küveyt	3	Oman	1
Banqladeş	2	Efiopiya	2	Kamboca	0	Pakistan	6
Boliviya	5	Birləşmiş Krallıq	6	Laos	0	Peru	6
Braziliya	5	Qvatemala	5	Keniya	2	Filippin	3
Bruney	0	Qayana	0	Madaqaskar	1	Polşa	6
Botsvana	5	Honq Konq	5	Meksika	6	Paraqvay	6
CAR	2	Haiti	2	Monqolustan	3	Qatar	0
Kanada	6	Macarıstan	5	Mozambik	3	Uqanda	0
Çili	6	İndoneziya	2	Malayziya	6	Uruqvay	6
Kamerun	2	Hindistan	3	Nigeriya	0	ABŞ	6
Qabon	2	İrlandiya	5	Hollandiya	5	Venesuela	0
Konqo	2	İran	3	Norveç	4	Vyetnam	3

Mənbə:

Credit information sharing and banking crises: An empirical investigation. B.Berrak, V.Neven, 2012; Doing Business

[3] Əks seçim (adverse selection) - müşahidə olunmayan xüsusiyyətləri seçərkən məlumatsız tərəf üçün arzuolunmaz nəticənin əldə olunması riskidir. Bankların borcalan haqqında kifayət qədər informasiyanın olmaması səbəbindən riskli borcalanlara kreditin verilməsi əks seçim hesab olunur.
[4] Mənəvi məsuliyyətsizlik (moral hazard) - tam nəzarətdə saxlanılmayan bir şəxsin məsuliyyətsiz və ya digər istənilməyən hərəkətləri etmək meyili.
[5] Bu indeks dövlət və özəl kredit reyestrləri tərəfindən toplanılan informasiyanın miqyasını və əl çatanlığını əks etdirir: 0-ən aşağı 6-ən yüksək səviyyə

13.2% olmuşdur. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə verilmiş kreditlər isə 31.6% artaraq ev təsərrüfatlarına verilmiş kreditlərin 8.3%-ni təşkil etmişdir.

I rübün sonuna fiziki şəxslərə verilən uzunmüddətli kreditlərin cəmi portfeldə payı 74% yüksək olmuşdur.

tərəfindən regionların kreditləşdirilməsi prosesi davam etmişdir. Rüb ərzində regionlara kredit qoyuluşları 2.4% artmışdır. Regionlara verilən kredit portfelində payın həcminə görə Abşeron iqtisadi rayonu (22.7%), Aran iqtisadi rayonu (33.9%), Gəncə-Qazax iqtisadi rayonu (13.3%), Lənkəran iqtisadi rayonu (10.5%) xüsusilə secilmişlər.

Cədvəl 2.2. Bankların kredit portfelinin sahələr üzrə strukturu və dinamikası

Sahə	01.04.13	
	mln. manat	Kredit portfelində payı, %-lə
Ticarət və xidmət	2 091.2	16.6
Ev təsərrüfatlarına	4 395	35
Kənd təsərrüfatı və emalı	595	4.8
İnşaat və əmlak	1 761	14
Sənaye və istehsal	1 140	9
Nəqliyyat və rabitə	817.2	6.5
Energetika və təbii sərvətlər	395.2	3.1
Digər	1 410	11

Mənbə: AMB

Kreditlər kənd təsərrüfatı və emal sektoruna 11.1%, nəqliyyat və rabitə sektoruna 1.4%, inşaat və əmlak sektoruna 38.6% artmışdır. Rüb ərzində plastik kartlarla əməliyyatlar üzrə kreditlərin artımı 22.2 % olmuşdur.

2013-cü ilin I rübündə də kredit təşkilatları

Regionlara milli valyutada verilmiş kreditlər ötən dövrlərdə olduğu kimi xarici valyutada kredit qoyuluşlarını üstələmiş və 1 aprel 2013-cü il tarixə kredit portfelinin 75.1%-ni təşkil etmişdir. Regionlarda kredit portfelinin 70.1%-ni uzunmüddətli kreditlər təşkil edir.

Cədvəl 2.3. Regionlar üzrə (Bakı istisna olmaqla) kreditlər və əmanətlər, mln. manat

Tarix	Kredit qoyuluşu			Əmanətlər		
	Cəmi	Manatla	Xarici valyutada	Cəmi	Manatla	Xarici valyutada
01.01.2012	1 271.7	940.1	331.5	327.6	242.7	85
01.04.2012	1 273.4	972.1	301.3	386.9	270.2	116.7
01.01.2013	1 546.1	1 144.5	401.6	359.1	270.7	88.4
01.04.2013	1 583.9	1 188.8	395.1	381	281.4	99.6

Mənbə: AMB

Qrafik 2.11. Bank aktivlərinin strukturu, %-lə



Mənbə: AMB

Qrafik 2.12. Bank sisteminin mənfəəti, mln. manat



Mənbə: AMB

Bankların qiymətli kağızlara investisiyaları 1 aprel 2013-cü il tarixinə 1 467.4 mln. manat təşkil etmişdir.

2.4. Bank sektorunun fəaliyyətinin maliyyə nəticələri

Hesabat dövrü ərzində bank sisteminin maliyyə nəticələri ümumilikdə müsbət olmuşdur.

2013-cü ilin I rübündə bankların əldə etdikləri mənfəət 74.8 mln. manat təşkil etmişdir. Vergi ödənildikdən sonra xalis mənfəət isə 71.2 mln. manat olmuşdur.

Mənfəətlə işləyən bankların sayı 39 (01.01.2013-cü il tarixə sayı 33), zərərlə işləyən bankların sayı isə 4 (01.01.2013-cü il tarixə sayı 10) olmuşdur.

2013-cü ilin I rübündə kommersiya bankların mənfəətinin artımı kredit aktivliyinin canlanması və aktivlərin keyfiyyətinin stabilləşməsi ilə izah olunur. Bu həm də faiz gəlirlərinin artımı və ehtiyatların formalaşmasına yönədilmiş vəsaitlərin azalmasında öz əksini tapmışdır.

Dövr ərzində bankların müştərilərə verdiyi kreditlər üzrə faiz gəlirləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 20.8% artmışdır (2013-cü ilin I rübündə 339.6 mln. manat, 2012-ci ilin I rübündə 280 mln. manat). Faiz gəlirlərinin orta aktivlərə nisbəti I rübdə 7.6% olmuşdur.

Faiz gəliri gətirən digər əməliyyatlardan (banklararası tələblər, investisiyalar və maliyyə lizinqi) əldə edilən gəlir 11.9% artmış və orta aktivlərə nisbətdə 0.6% təşkil etmişdir.

Hesabat dövründə bankların cəmi qeyri-faiz gəlirləri ötən ilin I rübü ilə müqayisədə 22.7% artmış və 92.2 mln. manat təşkil etmişdir. Qeyri-faiz gəlirləri əsasən valyuta əməliyyatlarından gələn gəlir, hesabların aparılması üzrə xidmətlərdən tutulan komisyon və digər komisyon haqlarının hesabına formalaşmışdır.

Bütövlükdə, bankların ümumi gəlirləri I rübdə (faiz və qeyri-faiz) 458.8 mln. manat təşkil etmiş və ötən ilin I rübü ilə müqayisədə 21.3% (80.7 mln. manat) artmışdır.

Dövr ərzində faiz xərcləri 192 mln. manat təşkil etmişdir. Bu əsasən fiziki şəxslərin müddətli əmanətləri üzrə faiz xərclərindən ibarətdir. Faiz xərclərinin orta aktivlərə nisbəti ötən ilin I rübünə nəzərən 0.3 faiz bəndi azalaraq 4.3% olmuşdur.

Qeyri-faiz xərcləri I rübdə 22.7% artmış və 167.5 mln. manat təşkil etmişdir. Qeyri-faiz xərclərinin orta aktivlərə nisbəti 0.1 faiz bəndi azalaraq 3.7% olmuşdur. Ümumi xərclər isə (faiz və qeyri-faiz) 20.3% (60.6 mln. manat) artaraq 359.6 mln. manat təşkil etmişdir.

Banklarda aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılmasına ayırmaların azalma tendensiyası davam etməkdədir. Belə ki, ötən ilin ilk rübü ilə müqayisədə ayırmalarda 40% azalma müşahidə olunmuşdur. Bu da öz növbəsində bankların məcmu xərclərinin azalmasına təsir göstərmişdir.

2013-cü ildə bankların əməliyyat mənfəəti 328.3 mln. manat olmuşdur.

Cədvəl 2.4. Mənfəətin strukturu, mln. manat

	2012 I rüb	2013 I rüb	Dəyişmə, %-lə
Faiz gəliri	279.3	366.6	31.3
Faiz xərcləri	162.5	192.1	18.2
Qeyri-faiz gəliri	74.6	92.2	23.6
Qeyri-faiz xərcləri	136.5	167.5	22.7
Ümumi gəlir	378.2	458.8	21.3
Ümumi xərc	299	359.6	20.3
Xalis əməliyyat mənfəəti	79.2	99.2	25.3
Aktivlər üzrə mümkün zərər üçün ehtiyatın yaradılmasına ayırmalar	40.6	24.2	-40.4

Mənbə: AMB

Cari ilin birinci rübündə bankların gəlirliliyi əhəmiyyətli artmışdır. Ötən ilin I rübü ilə müqayisədə kapitalın gəlirliliyi (ROE) 5.1 faiz bəndi artaraq 13.4%-ə çatmışdır. ROE-nin səviyyəsinin artması aktivlərin keyfiyyətinin stabilləşməsi və kreditlər üzrə ehtiyatlara ayırmaların həcminin azalması ilə əlaqədardır. Eyni zamanda bank aktivlərinin gəlirliliyi 0.6 faiz bəndi (ROA) artaraq 1.6% təşkil etmişdir .

Qrafik 2.13. Bank sisteminin gəlirliliyi, %-lə



Mənbə: AMB

Kapital multiplikatorunun[6] artım dinamikası bankların aktivlərini əsasən borclanmaqla artırdıqlarını göstərir. Belə ki, cari ilin ilk rübündə bu nisbət 8.4 səviyyəsindədir.

Qrafik 2.14. Xalis faiz marjası, mln. manat



Mənbə: AMB

Xalis faiz marjası[7] cari ilin ilk rübündə 5% olmuşdur. Buna səbəb xalis faiz gəlirlərinin artımının gəlir gətirən aktivlərin artımından yüksək olmasıdır. Bu gəlir gətirən aktivlərin keyfiyyətinin yaxşılaşmasından, bankın ucuz resurslara çıxış imkanlarının genişlənməsindən xəbər verir.

2.5. Bank sektorunun kapitalı

Hesabat ilində bank sisteminin kapital bazasının möhkəmlənməsi davam etmiş, sistemin kapital adekvatlığı göstəriciləri məqbul səviyyədə olmuşdur.

[6] Kapital multiplikatoru – aktivlər/kapital, və ya ROE/ROA. Hər bir manat kapitala düşən aktivlərin payını göstərir
[7] Xalis faiz marjası- (Xalis faiz mənfəəti/ Orta gəlir gətirən aktivlər)

2013-cü ilin I rübündə bank sisteminin məcmu kapitalının həcmi 3.9% və ya 97.5 mln. manat artaraq 2 680 mln. manata çatmışdır. Məcmu kapitalın artımının əsas mənbəyi (81%-ni) nizamnamə kapitalı olmuşdur. Belə ki, nizamnamə kapitalı 43.3 mln. manat və ya 2% artmışdır. Ümumi ehtiyatlar isə 4.3% (8.2 mln. manat) yüksəlmişdir. Törəmə müəssisələrin və digər kredit təşkilatlarının səhmlərinə (paylarına), qeyri-maddi aktivlərə investisiyalar 308.5 mln. manat səviyyəsində olmuşdur (cari ilin əvvəlinə 302.6 mln. manat təşkil etmişdir).

Qrafik 2.15. Bank kapitalının strukturu, mln. manat



Mənbə: AMB

Bank sektoru üzrə kapital adekvatlığı tələb olunan minimal limiti (12%) üstələyərək rüb ərzində sabit qalaraq 16.8% təşkil etmişdir.

Cari ilin I rübünün sonuna I dərəcəli kapital adekvatlığı göstəricisi 0.8 faiz bəndi yüksələrək 13.8% təşkil etmişdir ki, bu da minimal normanı (I dərəcəli kapital adekvatlığı norması 6%) 2 dəfədən çox üstələmişdir.

2.6. Banklarda faiz dərəcələri

2013-cü ildə manatla və xarici valyuta ilə kreditlər və depozitlər üzrə orta çəkili nominal faiz dərəcələrində azalma baş vermişdir.

Kreditlər üzrə manatla orta faiz dərəcələri ilin əvvəli ilə müqayisədə 0.35 faiz bəndi azalaraq 14.85% olmuşdur. Eyni dövrdə əmanətlər üzrə manatla nominal orta faiz dərəcələri 9.85%-dən 9.84%-ə enmişdir. Xarici valyutada kreditlər və əmanətlər üzrə faiz dərəcələri müvafiq olaraq 0.5 faiz bəndi və 0.15 faiz bəndi azalmışdır. Manatda faiz marjası ortalama 5.1%, valyutada isə 4.97% olmuşdur.

Qrafik 2.16. Manatla yeni cəlb edilmiş depozit və verilmiş kreditlər üzrə faiz dərəcəsi



Mənbə: AMB

Yeni verilmiş kreditlər və cəlb edilmiş əmanətlər, habelə banklararası kreditlər üzrə orta çəkili faiz dərəcələrinin azalması davam etmişdir.

III. BANK SİSTEMİNDƏ RİSKLƏR

2013-cü ilin I rübündə bank sistemində risklər idarə edilə bilən səviyyədə saxlanılmışdır. Aktiv və passivlərin ödəniş müddətlərinin təhlili bank sistemində likvidliyin məqbul səviyyədə olmasını göstərir.

Cari ilin I rübündə bankların likvidlik səviyyəsi kreditorlar və borcalanlar qarşısında öhdəliklərin vaxtında yerinə yetirilməsi üçün kifayət səviyyədə olmuşdur. Likvid aktivlərin ümumi aktivlərdəki xüsusi çəkisi kritik səviyyədən (10%) yüksək olmuş və 14% təşkil etmişdir. Likvid aktivlərin cari öhdəliklərdə xüsusi çəkisi rübün sonuna 68.3% olmuşdur. Ani likvidlik əmsalı 69% (1 yanvar 2013-cü l tarixə 67%) olmuşdur ki, bu da Mərkəzi Bankın tələbindən (minimal limit 30%) yüksəkdir.

Qrafik 3.1. Likvidlik göstəriciləri, %-lə



Mənbə: AMB

Yüksək likvid aktivlərin orta günlük qalığı ilin əvvəli ilə müqayisədə 353 mln. manat (16.5%) artaraq 2 498 mln. manata çatmışdır.

1 aprel 2013-cü il tarixə likvid aktivlərin strukturunda nağd vəsaitlər, nostro hesablar və dövlət qiymətli kağızların xüsusi çəkisi müvafiq olaraq 31.4%, 27.8% və 15.9% olmuşdur. Bankların Mərkəzi Bankda hesablarının likvid

Qrafik 3.2. Likvid aktivlərin dinamikası və strukturu, mln. manat



Mənbə: AMB

aktivlərdə xüsusi çəkisi dövrün sonuna 25% təşkil etmişdir.

Kreditlərin maliyyələşməsində daxili resursların payı artmaqdadır. Rüb ərzində kreditlərin cəmi depozitlərə nisbəti 147.3%-dən 145.3%-ə enmişdir.

Likvidliyin aktiv və öhdəliklər üzrə müddət təhlili (QAP təhlil) likvidliyin məqbul səviyyədə olmasını əks etdirir. Dövr ərzində 90 gündən yuxarı olan fərq azalmış və likvidlik riskinin azalmasına təsir göstərmişdir. Eyni zamanda kredit aktivliyinin artması ilə əlaqədar 365 gündən yuxarı olan fərq artsa da, likvidlik riski idarə olunan səviyyədə saxlanılmışdır.

Qrafik 3.3. Aktiv və passivlər arasında fərqin aktivlərə nisbəti, %-lə



Mənbə: AMB

Haşiyə 3. Vaxtı keçmiş kreditlər və makroiqtisadi göstəricilər arasında əlaqə

Son qlobal iqtisadi böhran dövründə vaxtı keçmiş kreditlərin (VKK) inkişaf etmiş ölkələrin (İEÖ) makroiqtisadi və maliyyə sabitliyi üçün təhlükə yaratması VKK ilə makroiqtisadi göstəricilər arasında əlaqənin təhlilini aktuallaşdırmışdır. Mövzunun əhəmiyyətini nəzərə alaraq, BVF-nun mütəxəssisi iyirmi altı İEÖ-nin timsalında VKK-in determinantlarını və problemli kreditlərin makroiqtisadi göstəricilərə təsirini təhlil etmişdir.

Ötən dekadada İEÖ-də VKK-in səviyyəsi illər üzrə əhəmiyyətli dərəcədə dəyişmişdir. Belə ki, Şərqi Asiya böhranından 2003-cü ilədək VKK kəskin artaraq təhlükəli həddə çatmışdır. Bunun əksinə, 2003-2007-ci illər (böhran öncəsi dövr) VKK-in azalması ilə müşayiət olunmuşdur. 2008-09-cu illərdə isə kövrək iqtisadi artım VKK-in artımını şərtləndirmişdir. Ümumilikdə, 2000-07-ci illər üzrə VKK-in orta göstəricisi əksər ölkələrdə 2008-09-cu illərdəki səviyyədən aşağı olmuşdur.

Tədqiqat işində kredit/ÜDM, daşınmaz əmlak qiymətləri, iqtisadi artım və inflyasiya ilə VKK arasında əlaqəni qiymətləndirmək üçün ekonometrik hesablama aparılmışdır. Hesablamanın nəticəsinə əsasən:

- daşınmaz əmlak qiymətlərinin 6.1% artması VKK-i növbəti ildə 0.3%, dörd ildən sonra isə 1.5% artırır;
- inflyasiyanın 1.6% artması (borcalanların gəlirlərini real ifadədə azaltmaqla) VKK-i növbəti ildə 0.3%, dörd ildən sonra isə 1.6% artırır;
- iqtisadi artımın 2.7% azalması VKK-i növbəti ildə 0.4%, dörd ildən sonra isə 1.7% artırır;
- kredit/ÜDM nisbətinin bir standard deviasiya azalması VKK-i növbəti ildə 0.3%, dörd ildən sonra isə 1% artırır.

Qeyd edək ki, VKK-in artımı protsiklik olduğu üçün makroiqtisadi və maliyyə göstəricilərinə mənfi təsir göstərir. Belə ki, VKK-in 2.4% artması:

- daşınmaz əmlak qiymətlərini növbəti ildə 1.2%, dörd ildən sonra isə 3.2% azaldır;
- real sektora verilmiş kreditləri növbəti ildə 4.5%, dörd ildən sonra isə 28% azaldır;
- iqtisadi artımı növbəti ildə 0.6%, dörd ildən sonra isə 1.1% azaldır;
- VKK-in özünü növbəti ildə 1%, dörd ildən sonra isə 3.8% artırır.

VKK-in iqtisadi artıma neqativ təsiri ölkələr üzrə fərqlənir. Belə ki, VKK-in 0.6%-1.7% artması inkişaf etməkdə olan ölkələrin əksinə İEÖ-də makroiqtisadi və maliyyə sabitliyinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərir.

Tədqiqatın nəticəsinə əsasən, VKK-in təhlükəli həddə çatmasının qarşısını almaq üçün iqtisadi tsiklin artım fazasında bankların riskləri artırması makroprudensial siyasət alətləri vasitəsilə məhdudlaşdırılmalıdır.

Mənbə:
Mwanza Nkusu, "Nonperforming loans and Macrofinancial Vulnerabilities in Advanced Economies", BVF, 2011.

Məzənnə risklərinin təsirinin minimallaşdırılması məqsədi ilə aktiv və öhdəliklərin valyuta strukturu balanslaşdırılmışdır. Belə ki, 2013-cü ilin 1 aprel tarixinə xarici valyutada olan aktivlər 36.5% (1 yanvar 2013-cü il tarixə 34.1%), öhdəliklər isə 42.8% (1 yanvar 2013-cü il tarixə 44.3%) təşkil etmişdir.

Cari ilin I rübündə kredit portfelinin keyfiyyəti məqbul, kredit riskləri isə idarə oluna bilən səviyyədə olmuşdur. Vaxtı keçmiş kreditlərin cəmi kreditlərdə xüsusi çəkisi 6% təşkil etmişdir.

Bank sektorunun davamlılığını əks edən kövrəklik indeksi[8] hazırda bank sisteminin kövrəklik səviyyəsinin optimal çərçivədə olduğunu göstərir (Qrafik 3.4.).

Qrafik 3.4. Bank sisteminin kövrəklik indeksi



Mənbə: AMB

Mərkəzi Bankın müntəzəm həyata keçirdiyi stress-testlər göstərir ki, preventiv tənzimləmə

[8] Kövrəklik indeksi – özəl sektora kreditlərin, xarici borc öhdəliklərinin və əhalinin əmanətlərinin standart kənarlaşmasının orta qiyməti olaraq müəyyən edilir. İndeksin optimal qiyməti -0.5<BSFİ<0 arasındadır.

və banklarda risk-menecment sistemlərinin təkmilləşdirilməsi aktivlərin keyfiyyətinin adekvat səviyyədə saxlanılmasına imkan verir. Likvidliyin məqbul səviyyədə saxlanılması və banklarda kapitallaşma prosesinin davam etməsi baş verə biləcək şoklara qarşı sistemin dayanıqlığını yüksəldir.

Haşiyə 4. Stress-testləşmənin evolyusiyası

Bütövlükdə maliyyə sisteminin və ayrı-ayrı institutların maliyyə dayanıqlığının qiymətləndirilməsi məqsədilə son illər dinamikada *stress-testləşdirmənin* istifadəsi genişlənir. Stress-testləşdirmə maliyyə sisteminin potensial olaraq zəif nöqtələrini izləməyə və proqnozlaşdırmağa kömək edən makroprudensial təhlil alətidir. Bu erkən xəbərdarlıq vasitəsi maliyyə sisteminin müxtəlif makroiqtisadi sarsıntılar və ssenarilər zamanı dayanıqlıq göstəricilərinin (kapital adekvatlığı, likvidlik, mənfəətlilik və s.) qiymətləndirilməsinə imkan verir.

Stress-testləşdirmə aşağıda qeyd olunan üsulları əhatə edir:

- *həssaslığın təhlili:* bu təhlilin məqsədi faiz dərəcələri, mübadilə məzənnələri, səhmlərin qiymətləri və s. kimi mühüm iqtisadi dəyişənlərdə baş verən dəyişikliklərə maliyyə təşkilatlarının elastik cavab reaksiyası ehtimalı və risklərə məruz qalma dərəcəsinin müəyyənləşdirilməsidir;
- *ssenarilərin təhlili:* təhlilin məqsədi müəyyən müstəsna, lakin həqiqətə bənzər iqtisadi ssenarilərdə maliyyə təşkilatlarının və bütövlükdə maliyyə sisteminin vəziyyətin öhdəsindən necə gələ biləcəyini qiymətləndirməkdən ibarətdir;
- *zəncirvari reaksiyanın təhlili:* təhlilin məqsədi çətin vəziyyətin təhlili zamanı bəzi maliyyə risklərinin törətdiyi sarsıntıların bütövlükdə maliyyə sisteminin potensial zəif yerlərinə yayılmasının nəticələrini nəzərə almaqdan ibarətdir.

Stress-testləşmədə iki yanaşma mövcuddur: (i) *top-down* (yuxarıdan aşağı); və (ii) *bottom-up* (aşağıdan yuxarı) yanaşmaları. *Top-down* metodunda makroiqtisadi ssenarilər qurularaq bankların iştirakı olmadan stress-testləşdirmə aparılır. *Bottom-u*p stress-testləşdirmə metodu bankların özləri tərəfindən qurulan modellər və ssenarilər əsasında aparılır və nəticələr aidiyyati nəzarət orqanına təqdim edilir.

Qeyd olunan hər iki metod - *top-down* və *bottom-up* fərqli modelləşdirmə fəlsəfəsinə əsaslanır. *Top-down* modelləşməsi risklərin vahid və məntiqli nəzəriyyə əsasında qiymətləndirilməsinə, bottom-up metodu isə məlumatın dərinliyinə üstünlük verir (Qrafik). Makroiqtisadi modellərə, o cümlədən Dinamik Stoxastik Ümumi Tarazlıq (DSÜT) modellərinə gəldikdə isə, bunlar əsasən nəzəriyyə əsasında qurulur və empirik dərinlikləri, demək olar ki, olmur (Burrows, Learmonth, McKeown, 2012)

Stress-test modellərində nəzəri bağlılıq və empirik dərinlik arasında seçim



İlkin stress-testləşdirmə modelləri aqreqatlaşdırılmış zaman sırasından istifadə etməklə makroiqtisadi faktorların kredit riskinə təsirini qiymətləndirirdilər. Ümumiləşdirilmiş zaman sırasına əsaslanan modellərin proqnozlaşdırma potensialı məhdud olsa da onlar kommunikasiya məqsədi üçün daha yararlıdırlar.

Risklərin daha dəqiq qiymətləndirilməsi yeni nəsil modellərin qurulmasına zərurət yaratdı. Bu modellər ümumiləşdirilmiş məlumat deyil, fərdi - panel data[9] - məlumatlarını istifadə edərək bankların maliyyə dayanıqlığı göstəricilərinin makroiqtisadi faktorlardan asılılığını qiymətləndirirlər. Bu zaman hər bir bank üzrə göstəricilər ayrı-ayrılıqda nəzərə alınmaqla model qurulur. *Panel data stress-testləşdirmənin* əsas üstünlüyü qiymətləndirməni mikro səviyyəyə endirməklə makroiqtisadi şoklardan hər bankın necə təsirlənəcəyini göstərməkdir. Modelləşmədə əsas çatışmamazlıq hər bir bank üzrə məlumat bazasının tələb olunmasıdır. Bir çox inkişaf etmiş ölkələrin mərkəzi bankları məhz *panel data stress-testləşdirməsini* aparırlar.

Mənbə:

Quagliariello, M. (2009). Stress-testing the Banking System. Cambridge University Press, New York.

Burrows O., Learmonth D. and McKeown J. (2012). RAMSI: a top-down stress-testing model. Financial Stability Paper No. 17, Retrieved from Bank of England website: http://www.bankofengland.co.uk/publications/Documents/fsr/fs_paper17.pdf

[9] Panel data – zaman sırası və çarpaz seksiya (cross-section) datasının birləşməsindən yaranan data.

IV. ÖDƏNİŞ SİSTEMLƏRİ

Hesabat dövründə ödəniş sistemlərinin sabit və fasiləsiz fəaliyyəti təmin edilmişdir. Ölkədəki iqtisadi aktivliyə adekvat olaraq Milli Ödəniş Sistemində aparılan əməliyyatların həcmi və sayı artmışdır.

2013-cü ilin I rübü ərzində Milli Ödəniş Sistemində ümumi həcmi 30 716 mln. manat olmaqla 6.465 mln. ədəd əməliyyat aparılmışdır. Ötən illə müqayisədə əməliyyatların sayı 4.3% (267 min ədəd), ümumi həcmi isə 19.5% (5 009 mln. manat) artmışdır.

Hesabat dövründə ödənişlərin orta günlük sayı 98 min ədəd, orta günlük həcmi isə 465.4 mln. manat təşkil etmişdir (2012-ci ilin ilk rübündə müvafiq olaraq 93.9 min. ədəd və 389.5 mln. manat).

Elektron ödənişlərin 89.9%-i AZİPS sistemi vasitəsilə həyata keçirilmiş və onun ümumi həcmi 27 607 mln. manat olmuşdur (103 min ədəd əməliyyat). 2012-ci ilin müvafiq dövrü ilə müqayisədə əməliyyatların ümumi həcmi 17.4% (4 101 mln. manat) artmışdır. Hər bir ödəniş sənədinin məbləği orta hesabla 280 min manat təşkil etmişdir.

Qrafik 4.1. Milli Ödəniş Sistemində ödəniş əməliyyatlarının dinamikası



Mənbə: AMB

Məbləğ baxımından ödənişlərin 10.1%-i (3 109 mln. manat) XÖHKS sistemi vasitəsilə həyata keçirilmişdir. Say baxımından isə XÖHKS sisteminin payı 98.4% təşkil etmiş və I rübün yekunu üzrə 6,362 mln. ədəd ödəniş olmuşdur. Bu da ötən ilin müvafiq dövrünü həcm etibarilə 41.3% (908 mln. manat) və say etibarilə 4.1% (252 min ədəd) üstələmişdir. Hər bir ödənişin məbləği orta hesabla 490.7 manat təşkil etmişdir.

Qrafik 4.2. 2013-cü ilin I rübü ərzində ölkə daxilində bankomatlar və POS-terminallarla aparılan əməliyyatlarda debet və kredit kartlarının xüsusi çəkisi, %-lə



Mənbə: AMB

Rüb ərzində ölkə ərazisində bankomatların sayı 1.5%, POS-terminalların sayı 1.1% artmışdır.

2013-cü ilin I rübündə bankomatlar vasitəsilə 1 939 mln. manat həcmində 12.233 mln. ədəd əməliyyat aparılmışdır. POS-terminallar vasitəsilə aparılan əməliyyatların ümumi sayı 1 825 min ədəd, həcmi isə 197 mln. manat təşkil etmişdir.

Ödəniş kartlarının sayı rüb ərzində 167 min ədəd artaraq 5.175 mln. ədədə çatmışdır ki, bu da hər min nəfərə (yetkinlik yaşına çatmış) orta hesabla 862.5 ədəd ödəniş kartı deməkdir.

Haşiyə 5. Dünyada E-ticarətin inkişafı

Ötən illər dünyada E-ticarət və ya internet üzərindən ticarət sürətlə böyüməkdədir. 2012-ci ilin sonu üzrə dünyada E-ticarətin həcminin 1.5 trln. $ təşkil edəcəyi gözlənilir ki, onun da təqribən 26%-i Avropanın, 24%-i ABŞ-ın, 50%-i isə digər ölkələrin payına düşür. Ümumilikdə, proqnozlar E-ticarətin sürətlə böyüməyə davam edəcəyini göstərir. Belə ki, 2016-cı ilədək sektorun orta illik qlobal artımının ikirəqəmli olacağı gözlənilir. Təkcə Rusiya və Türkiyədə sektorun dövriyyəsi orta müddətli dövrdə iki dəfədən çox artacaqdır. Hazırda Türkiyədə bu sektorda 14 mindən çox veb sayt, 7 mln. müştəri (əhalinin 10%-i) cəmləşmişdir.

İllik adambaşına E-ticarət dövriyyəsinin həcminə görə İngiltərə dünyada liderdir. İngiltərəni 3547 dollarla Avstraliya, 2530 dollarla Norveç, 2293 dollarla ABŞ, 2185 dollarla Danimarka izləyir. Bu göstərici Rusiyada 93 və Türkiyədə 275 dollar təşkil edir. E-ticarətin ümumi ticarətdəki payı ən yüksək Koreyadadır (11.9%). Bu nisbət İngiltərədə 8.8%, ABŞ-da 5.8%, Polşada 4.1%, Braziliyada 3%, Türkiyədə 1.7%-ə bərabərdir.

Alıcılar E-ticarət vasitəsilə internetdən müxtəlif adda məhsullar əldə edə bilirlər. Məsələn, ABŞ-da internet üzərindən alış-veriş edənlərin 42%-i qida məhsulları, 32%-i geyim alırsa, Almaniyada 45% daha çox elektronika məhsullarının sifarişini verir. İEOÖ-də də əsasən elektronika məhsulları əldə edirlər, Argentinada 36%, Braziliyada 45%, Rusiya və Türkiyədə 35%. Xüsusilə Rusiyada e-ticarətin əhəmiyyətli hissəsi dəmir yolu və aviabilet sifarişlərinin payına düşür.

Dünya ölkələrində E-ticarət üzrə ixtisaslaşmış şirkətlər böyük sifariş həcmini yerinə yetirmək iqtidarındadırlar. Məsələn, Türkiyədə ilk 5 E-ticarət şirkəti sırasında olan və bazar payı 15%-ə yaxınlaşan Markafoninin gündəlik məhsul göndərmə potensialı 50 min ədəddir. Bu şübhəsiz ki, əlavə daşıma xidmətlərinə də tələb yaradır.

E-ticarətin dünyada geniş vüsət almasının əsas səbəbləri satıcı üçün işin təşkilinin daha asan başa gəlməsi, alıcı üçün isə alış-veriş üçün vaxta qənaət, evə çatdırılma və s.-dir. E-ticarətinin təşkil halında istehsalçı satış obyektinin alınması və ya icarəyə götürülməsi, əlavə işçi heyətinin yığılması və digər administrativ xərclərin əhəmiyyətli hissəsindən xilas olur. Eyni zamanda ölkələrin təcrübəsi E-ticarətin sürətli artımının kompleks faktorlarla əlaqədar olduğunu göstərir. Bu faktorlar sırasına kompüterə sahiblik və internetə çıxış səviyyəsi, ağıllı telefonların geniş istifadəsi, sosial şəbəkələrin vüsət alması, müvafiq internet saytların təhlükəsizlik standartlarının artırılması, istehlakçı hüquqlarının qorunması və s. aid edilir.

Mənbə:
Maven Partners, McKinsey təşkilatlarının analitik hesabatları.

Qrafik 4.3. Quraşdırılmış bankomatların və POS-terminalların sayı



Mənbə: AMB

2013-cü ilin 1 aprel tarixinə ölkə üzrə ümumi kart istifadəçilərinin sayı 4.5 mln. nəfər təşkil etmişdir.

Ödəniş kartlarının 89,9%-ini debet kartları (bundan 55%-i sosial, 29%-i əmək haqqı və 16%-i digər kartlar), qalan 10.1%-ini isə kredit kartları təşkil etmişdir.

Rüb ərzində ödəniş kartları vasitəsilə ölkə daxilində həyata keçirilən tranzaksiyaların ümumi həcminin 86.8%-ni (14.058 mln.

manat) nağd pul vəsaitinin çıxarılması, 13.2%-ni (2.136 mln. manat) isə nağdsız əməliyyatlar təşkil etmişdir.

İnternet vasitəsilə bank xidmətlərindən istifadə də genişlənməkdədir. Belə ki, rüb ərzində internet-bankinq vasitəsilə 80.547 mln. manat məbləğində 12.3 min ədəd əməliyyat həyata keçirilmişdir. Mobil-bankinq vasitəsilə isə 147.541 min manat məbləğində 4.499 min ədəd əməliyyat həyata keçirilmişdir.

İstifadə olunmuş qrafik və cədvəllər

Qrafiklər

Qrafik 1.1. Qlobal maliyyə sabitliyi xəritəsi 5
Qrafik 1.2. ÜDM-in artım tempi 6
Qrafik 1.3. Qlobal ixrac. 6
Qrafik 1.4. Əmtəə qiymətləri indeksi, 2009M1=100 6
Qrafik 1.5. Qlobal maliyyə bazarlarında aktivlik indekslə dinamikası 7
Qrafik 1.6. İEOÖ-ə xalis kapital axınları 7
Qrafik 1.7. Fiskal balans 7
Qrafik 1.8. Aktivlərin ÜDM-ə nisbəti 8
Qrafik 1.9. Bankların kapital adekvatlığı 9
Qrafik 1.10. Yanvar-mart aylarında iqtisadi artım 10
Qrafik 1.11. Orta illik İQİ 10
Qrafik 2.1. Herfindal – Hirşman indeksi (kreditin həcminə görə) 11
Qrafik 2.2. Bank şəbəkəsinin dinamikası 12
Qrafik 2.3. Bankların resurs bazasının strukturu 12
Qrafik 2.4. Qeyri-maliyyə sektorunun depozitlərinin dinamikası 12
Qrafik 2.5. Əmanətlərin müddət strukturu 13
Qrafik 2.6. Xarici borcun dinamikası 13
Qrafik 2.7. Biznes kreditlərinə tələb, (banklar arasında aparılmış sorğunun nəticələri) 13
Qrafik 2.8. İstehlak kreditlərinə tələb və təklif, (sorğu nəticələri) 14
Qrafik 2.9. Kredit portfelinin valyuta strukturu 14
Qrafik 2.10. Subyektlər üzrə kredit portfelinin strukturunun dinamikası 14
Qrafik 2.11. Bank aktivlərinin strukturu 17
Qrafik 2.12. Bank sisteminin mənfəəti 17
Qrafik 2.13. Bank sisteminin gəlirliliyi 18
Qrafik 2.14. Xalis faiz marjası 18

Qrafik 2.15. Bank kapitalının strukturu 19

Qrafik 2.16. Manatla yeni cəlb edilmiş depozit və verilmiş kreditlər üzrə faiz dərəcəsi 19

Qrafik 3.1. Likvidlik göstəriciləri 20

Qrafik 3.2. Likvid aktivlərin dinamikası və strukturu 20

Qrafik 3.3. Aktiv və passivlər arasında fərqin aktivlərə nisbəti 20

Qrafik 3.4. Bank sisteminin kövrəklik indeksi 21

Qrafik 4.1. Milli Ödəniş Sistemində ödəniş əməliyyatlarının dinamikası 23

Qrafik 4.2. 2013-cü ilin I rübü ərzində ölkə daxilində bankomatlar və POS-terminallarla aparılan əməliyyatlarda debet və kredit kartlarının xüsusi çəkisi 23

Qrafik 4.3. Quraşdırılmış bankomatların və POS-terminalların sayı 24

Cədvəllər

Cədvəl 2.1. Bank sisteminin əsas göstəricilərinin artım tempi 11

Cədvəl 2.2. Bankların kredit portfelinin sahələr üzrə strukturu və dinamikası 16

Cədvəl 2.3. Regionlar üzrə (Bakı istisna olmaqla) kreditlər və əmanətlər 16

Cədvəl 2.4. Mənfəətin strukturu 18

Azərbaycan Respublıkasının Mərkəzi Bankı
Azərbaycan, Bakı, AZ1014, R. Behbudov küç., 32
Telefon (994 12) 493 11 22
Faks (994 12) 493 55 41
www.cbar.az